**AZƏRBAYCAN RESPUBLİKASI**
**DÖVLƏT STATİSTİKA KOMİTƏSİNİN APELLYASİYA ŞURASI**
**Q Ə R A R**
**№ 5**

**Bakı şəhəri** **20 fevral 2024-cü il**

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası Murad Mətləb oğlu Kazımovun Ağcabədi Rayon Statistika İdarəsinin məsləhətçi vəzifəsinin tutulması üçün 2024-cü il yanvar ayının 16-da keçirilən müsabiqənin müsahibə mərhələsinin nəticəsinə dair şikayətinə baxaraq müəyyən etdi:

Namizəd Kazımov Murad Mətləb oğlu Ağcabədi Rayon Statistika İdarəsinin məsləhətçi vəzifəsinin tutulması üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən 2023-cü il sentyabr ayının 6-da elan edilmiş müsabiqənin müsahibə mərhələsində iştirak etmişdir. Müsahibə 2024-cü il yanvar ayının 16-da Dövlət Statistika Komitəsinin Əhali statistikası şöbəsinin müdiri Rza Allahverdiyev, Dövlət İmtahan Mərkəzinin nümayəndəsi Mətanət Səmədzadə və müstəqil ekspert Vəfa Nəcəfovadan ibarət komissiya tərəfindən keçirilmişdir. Kazımov Murad Mətləb oğluna müsahibə komissiyasının üzvlərinin hər biri 14 bal vermiş və nəticədə iştirakçı 14 bal toplayaraq müvəffəqiyyət qazana bilməmişdir.

Müsahibənin nəticəsindən narazı qalan namizəd "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 29-1-ci maddəsinə və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının 3.23-1.1-ci yarımbəndinə əsasən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasına 16.01.2024-cü il tarixdə şikayət ərizəsi ilə müraciət etmişdir.

Apellyasiya Şurasının iclasında aparılmış müzakirələrə əsasən namizədin vəzifəyə uyğun hesab edilmədiyi müəyyən edilmişdir.

Yuxarıda göstərilənlər və Apellyasiya Şurası üzvlərinin müzakirələrdən sonra gəldiyi yekun nəticə nəzərə alınaraq Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası **qərara aldı**:

1. Kazımov Murad Mətləb oğlunun 2024-cü il 16 yanvar tarixli apellyasiya şikayəti təmin edilməsin və Ağcabədi Rayon Statistika İdarəsinin məsləhətçi vəzifəsinin tutulması üçün 2024-cü il yanvar ayının 16-da keçirilən müsabiqənin müsahibə mərhələsinin nəticəsi qüvvədə saxlanılsın.
2. S.Süleymanova Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasının qərarı qəbul edildiyi gündən onun surətinin üç gün müddətində Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə və şikayətçiyə təqdim edilməsini təmin etsin.

**Sədr** **Vahab Məmmədov**

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
SƏNƏDLƏR ÜÇÜN

Əsli ilə düzdür: